Azərbaycan Silahlı Qüvvələri – 100

Azərbaycan Ordusu müstəqil dövlətimizin ərazilərinin etibarlı keşikçisidir

❐ ***Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin sərəncamı ilə 2018-ci ildə "Azərbaycan Xalq Cümhuriyyət ili" elan edilmiş ölkəmizdə bir-birinin ardınca qürur və sevincini yaşadığımız şərəfli 100-cü ildönümlərindən biri də bu gün Azərbaycan Ordusunun yaradılmasının bir əsrinin tamam olmasıdır. Düz 100 il əvvəl Azərbaycan xalqı nəinki milli arzuları, istəkləri özündə əks etdirən müstəqil, demokratik dövlətin əsasını qoydu, eyni zamanda, çoxminillik qəhrəmanlıq tarixinə yeni səhifələr yazaraq bərpa edilmiş dövlətçiliyinin dayağı olan milli ordusunu yaratdı.***

Bu ordunun yaradılması, sözsüz ki, müstəqil dövlət quruculuğunun tələbləri ilə şərtlənirdi. Lakin AXC-nin elan olunduğu vaxt Azərbaycan ərazisində elə bir mürəkkəb hərbi-siyasi şərait yaranmışdı ki, ölkənin müstəqilliyi kimi, xalqın özünün mövcudluğu da çox ciddi təhlükə və sınaqlarla rastlaşmışdı. Qanlı bolşeviklərin, daşnakların, Azərbaycan xalqının həyatına yad olan eserlərin, çar Rusiyasının sərhədlərinə sahib çıxmaq istəyən ağqvardiyaçı qüvvələrin simasında günü-gündən genişlənməkdə olan təcavüzkarlığın qarşısının alınması qısa zaman ərzində güclü milli hərbi qüvvələrin formalaşmasını tələb edirdi.

Belə hərbi qüvvələrin tez bir zamanda təşkili üçün isə ölkədə zəruri iqtisadi baza, hərbi infrastruktur, milli kadrlar mövcud deyildi. Lakin milli dövlətin iradəsi, xalqın gücü, müstəqil Azərbaycana xidməti həyat yolu seçmiş zabit və generallarımızın qətiyyəti nəticəsində belə çətin bir vəzifənin öhdəsindən uğurla gəlmək mümkün oldu. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev bütün çətinliklərə baxmayaraq o dövrdə ordu quruculuğu sahəsində görülən işlərin əhəmiyyətini belə qiymətləndirmişdi: "1918-ci ildə Xalq Cümhuriyyəti Azərbaycanın ilk demokratik hökuməti dövlət quruculuğu işini çox mürəkkəb və çətin bir dövrdə apardığı zaman Silahlı Qüvvələrin yaranmasına və ordu quruculuğuna xüsusi əhəmiyyət vermiş, qayğı göstərmişdir. Xalq Cümhuriyyətinin iki illik tarixini bu gün vərəqləyərkən ordu quruculuğu sahəsində nə qədər dəyərli işlər gördüyü, doğrudan da, böyük hörmət hissi doğurur".

Milli silahlı qüvvələr quruculuğunun çox çətin və mürəkkəb şəraitdə aparılmalı olduğunu bu ordunun yaradılmasına rəhbərliyi öz üzərinə götürmüş tam artilleriya generalı Səməd bəy Mehmandarov da etiraf etmişdi. 1918-ci il noyabr ayının 7-də imzaladığı 1 nömrəli əmrində S.Mehmandarov yazırdı: "Vəzifəmin icrasına başlarkən mənim görməli olduğum o böyük işin bütün ciddiliyini, mürəkkəbliyini və çətinliyini yaxşı anlayıram. Ancaq bu iş görülməlidir və Hərbi Nazirliyin qarşısına çıxan bütün çətinlikləri birgə səmimi fəaliyyət və vəzifəyə təmiz münasibət bəsləndiyi halda aradan qaldırmaq mümkündür".

AXC hərbi nazirinin müavini olmuş general Əliağa Şıxlinskinin fikrincə, ölkənin ən yaxşı qüvvələrinin cəlb edilməsi ilə mövcud olan çətinlikləri aradan qaldırmaq və Azərbaycan xalqının güvənc yerinə çevrilən bir ordunu yaratmaq mümkün olardı. Hərbi nazir adından imzaladığı əmrlərdən birində o yazırdı ki, ordu "Vətənin dayağıdır və ora Vətənin ən yaxşı qüvvələri daxil olmalıdır".

Əslində, elə belə də oldu. Cümhuriyyət ordusu quruculuğuna Vətənin ən yaxşı qüvvələri cəlb olundu.

Belə qüvvələrin sırasında yer alan tam artilleriya generalları Səməd bəy Mehmandarov və Əliağa Şıxlinski, general-leytenant Məmməd bəy Sulkeviç, general-mayor Həbib bəy Səlimov, general-mayor Süleyman bəy Əfəndiyev, general-mayor Cavad bəy Şıxlinski, general-mayor Həmid bəy Qaytabaşı, general-mayor Teymur bəy Novruzov, polkovnik Şirin bəy Kəsəmənli, polkovnik Nuh bəy Sofiyev, polkovnik Əhməd bəy Dibirov, polkovnik İsrafil bəy İsrafilov və onlarca başqalarının adları Azərbaycanın hərb tarixinin sönməyən ulduzlarını təşkil edir.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə müstəqil milli ordu quruculuğu tarixini iki dövrə bölmək olar. Birinci, Azərbaycanın müstəqilliyinin elan edildiyi gündən 1918-ci il oktyabr ayının sonlarına qədər olan dövrdür. Müstəqilliyin elan edilməsindən sonra Azərbaycanda və onun ətrafında formalaşan mürəkkəb hərbi-siyasi şəraiti, ölkənin müstəqilliyinə qənim kəsilmiş bolşevik-daşnak cütlüyünün yaratdığı real təhlükənin tez bir zamanda aradan qaldırılması zərurətini nəzərə alaraq milli hökumət Osmanlı Türkiyəsindən hərbi kömək istədi. Azərbaycana gəlmiş Osmanlı hərbi qüvvələri ilə Azərbaycanın milli hərbi qüvvələrinin bazasında Qafqaz İslam Ordusu yaradıldı.

Azərbaycanda milli ordunun yaradılması və ölkə ərazilərinin erməni-bolşevik qoşunlarından təmizlənməsi Qafqaz İslam Ordusunun komandanlığına həvalə olundu. Məhz bu ordunun rəhbərliyi altında müştərək hərbi qüvvələrin 1918-ci il iyun ayının ortalarında Qaraməryəm ətrafından başlanan uğurlu hərbi yürüşü 1918-ci il sentyabr ayının 15-də Bakı şəhərinin azad edilməsi ilə başa çatdı.

Lakin Birinci dünya müharibəsinin nəticələrini özündə əks etdirən Mudros müqaviləsinin şərtlərinə görə, Osmanlı dövlətinin hərbi qüvvələri Azərbaycanı tərk etmək məcburiyyətində qaldı.

Bu zaman Azərbaycan hökuməti özünün 23 oktyabr 1918-ci il tarixli iclasında AXC Hərbi Nazirliyinin bərpa edilməsi barədə məsələni müzakirə etdi. Nazirlər Şurasının 1918-ci il 1 noyabr tarixli qərarı ilə bu nazirlik bərpa edildi. Bununla Azərbaycanda ordu quruculuğu və ölkə ərazisinin silahlı müdafiəsi vəzifəsi bütünlüklə Hərbi Nazirliyə həvalə edildi. Həmin vaxtdan da cümhuriyyət ordusu quruculuğunun ikinci dövrü başlayır.

Yeni tarixi şəraitdə Azərbaycan hökuməti ordu quruculuğuna rəhbəlik edəcək strukturları yaratmaqla bərabər, bu qurumun öz fəaliyyətində rəhbər tutmalı olduğu siyasəti də işləyib hazırladı. Həmin siyasətə əsasən, ordu quruculuğu bir tərəfdən dövlət quruculuğunun tərkib hissəsi kimi qəbul edilir və bu prosesə ümumdövlət mənafelərindən yanaşılırdı. Digər tərəfdən də cümhuriyyət ordusu hər hansı bir təcavüzkar məqsəd üçün deyil, konkret tarixi şəraitdə Azərbaycanın ərazi bütövlüyünün qorunması üçün etibarlı bir qüvvə kimi təsəvvür edilirdi.

Milli ordu quruculuğu üçün düzgün seçilmiş olan belə siyasi-strateji xətt ölkənin güclü silahlı qüvvələrinin formalaşdırılması üçün real zəmin yaratdı. Qarşıda dayanan məsuliyyətli vəzifələrin isə qısa zaman ərzində və uğurla həll edilməsi üçün ordu ilə bağlı məsələlər yeni cəmiyyət quruculuğunun bütün sahələri ilə sıx və səmərəli şəkildə tənzimləndi, ölkənin mövcud imkanları işin uğurlu aparılmasına səfərbər edildi.

Ali qanunvericilik orqanı olan ölkə parlamenti də, icraedici oran olan Nazirlər Şurası da bu istiqamətdə üzərlərinə düşən vəzifələrin icrasına dövlət maraqları mövqeyindən yanaşdılar. Ölkə parlamenti mövcud olduğu dövr ərzində hərbi quruculuğun müxtəlif sahələri ilə bağlı 9 qanun layihəsini nəzərdən keçirdi və müvafiq qərarlar qəbul etdi. Həmin qərarların hər biri ordu quruculuğu və ölkənin müdafiə gücünün artırılması üçün həm cari, həm də perspektiv baxımdan əhəmiyyətli idi. Bu qərarlar icraedici orqanların ordu quruculuğu ilə bağlı fəaliyyətinin istiqamətləndirilməsi üçün hüquqi baza kimi qəbul edildi.

Hərbi Nazirlik bərpa edilərəndə mövcud olan milli hərbi hissələr Gəncə və Qarabağda yerləşmişdilər. Bu, tarixi şəraitlə və qoşun hissələrinin icra etdikləri vəzifələrlə bağlı idi. Nazirliyin rəhbərliyi ordu daxilindəki durumla tanış olmaq üçün 1918-ci il noyabr ayının sonu və dekabr ayının ilk günlərində Gəncə və Ağdam ətrafında yerləşmiş hərbi hissələrdə bütün hərbi qulluqçuların Azərbaycan Xalq Cümhuriyyətinə sədaqət andı içməsi təşkil edilsin.

Azərbaycan dili orduda dövlət dili elan edildi. Bununla bağlı hərbi nazir AXC ordusunda xidmət edən qeyri-azərbaycanlı zabitlər qarşısında belə bir tələb qoydu ki, bir ay müddətində heç olmasa komanda sözlərinin azərbaycanca qarşılığını öyrənsinlər və əsgərlərə Azərbaycan dilində komanda versinlər. Bu tələbi yerinə yetirməyən zabitlər dərhal ordudan xaric edilməli idilər. Azərbaycan dilinin öyrədilməsi və əsgərlər arasında savadsızlığın ləğvi üçün ordu daxilində müvafiq kurslar təşkil edildi və dərslərin aparılmasına təcrübəli mütəxəssislər cəlb olundular. Əsgərlərlə ünsiyyətin Azərbaycan dilində aparılması və onlara hərb işinin Azərbaycan dilində öyrədilməsi şəxsi heyəti xidmətə daha sıx şəkildə bağladı. Bu həm də ordu daxilindəki mənəvi-psixoloji vəziyyətin yaxşılaşmasına, habelə döyüş hazırlığı səviyyəsininm yüksəldilməsinə müsbət təsir göstərdi.

Hərbi Nazirliyin rəhbərliyi Azərbaycan ordusunun şəxsi heyətinin mənəvi durumuna, hər bir döyüşçünün mənsub olduğu xalqın tarixi keçmişinin öyrənilməsinə, onun qəhrəmanlıq nümunələri üzərində tərbiyələndirilməsinə böyük əhəmiyyət verirdi. Bu baxımdan nazir Səməd bəy Mehmandarov çox qiymətli fikir və təkliflər irəli sürdü. Bunların mahiyyəti ondan ibarət idi ki, Azərbaycanın qəhrəmanlıq tarixi həm araşdırılmalı, həm də xalq kütlələrinə, həm də qoşunların şəxsi heyətinə çatdırılmalıdır.

Səməd bəy Mehmandarov tələb edirdi ki, azərbaycanlılardan təşkil edilmiş olan hərbi qüvvələr öz xalqının qəhrəmanlıq tarixini yaxşı bilməli, ondan ibrət götürməlidir. Hərbi nazir bu istiqamətdə aparılan işlərin milli-bəşəri dəyərlər üzərində qurulmasına üstünlük verir və bu sahədə ifratçılığa varılmasına, milli tərbiyənin millətçiliyin qızışdırılması ilə əvəzlənməsinə razı deyildi. O, milli tarixi keçmişin öyrənilməsində yalnız sağlam hisslərin aşılanmasını və mütərəqqi xəttin izlənməsini əsas vəzifə sayırdı.

Yeni dəyərlər üzərində qurulan ordunun milli hərbçi kadrlarının hazırlanması da nazirlik rəhbərliyinin qarşısıda dayanan mühüm vəzifələrdən biri idi. Buna nail olmaq üçün hələ 1918-ci il mart ayının 1-də əsası qoyulmuş Milli Hərbiyyə Məktəbinin fəaliyyəti yenidən quruldu və statusu artırılaraq Praporşiklər məktəbinə çevrildi. 1919-cu ilin sonunda Praporşiklər məktəbinin də statusu qaldırıldı və onun bazasında Hərbiyyə məktəbi yaradıldı. Bu məktəbdən başqa, cümhuriyyət ordusu tərkibində milli hərbçi kadrlar hazırlayan İstehkam məktəbi, Hərbi dəmiryolçular məktəbi və Hərbi feldşer məktəbi də acılmışdı. İstehkam məktəbi zabit karları hazırlayan məktəb idisə, digər iki məktəb hərbi qulluqçuların ixtisasının təkmilləşdirilməsi üçün nəzərdə tutulmuşdu.

Güclü ordunun formalaşdırılması üçün vacib olan müxtəlif hərbi strukturların yaradılması, qoşunların ərzaq və digər vasitələrlə təmin olunmasının yaxşılaşdırılması, həmçinin hərbi qulluqçuların maaşlarının vaxtaşırı artırılması həm hökumətin, həm də Hərbi Nazirliyin daim nəzarətində idi. Bu sahədə nazirliklə Nazirlər Şurası arasında sıx əlaqə yaradılmışdı. Hərbi nazir 1919-cu ilin aprelində ordunun formalaşdırılması üçün büdcədən ayrılacaq vəsaitin miqdarı barədə hökumətə öz təklifini verdi. Həmin təklif nəzərə alınmaqla, 1919-cu ildə ordu quruculuğu məsələləri üçün 399,4 milyon manat vəsait ayrıldı ki, bu da dövlət büdcəsinin 27,7 faizini təşkil edirdi.

Hökumətin və Hərbi Nazirliyin həyata keçirdiyi tədbirlər nəticəsində AXC ordusunun döyüş qabiliyyəti xeyli gücləndi və bu da ölkənin silahlı müdafiəsi imkanlarını daha da genişləndirdi. 1919-cu ilin yayında Denikin ordusunun Azərbaycana hərbi müdaxiləsi təhlükəsinin artdığı zaman, Cümhuriyyət ordusunun döyüş qabiliyyətinə arxalanmaqla, bütöv müdafiə sisteminin yaradılmasına nail olundu. Şimal sərhədlərinin, Abşeronun, Bakının müdafiə sistemləri quruldu, onların möhkəmləndirilməsi üçün kifayət qədər qüvvə və vəsait ayrıldı.

1919-cu ilin iyununda Dövlət Müdafiə Komitəsi yaradıldı və bununla da ölkənin müdafiəsinin təşkili konkret bir orqanda mərkəzləşdirildi. Nazirlər Şurası sədrinin rəhbərlik etdiyi bu orqan müdafiə və ordu quruculuğu sahəsində dövlət səviyyəsində zəruri olan qərarları qəbul edir və həm də lazım olan qüvvələri səfərbər etməklə onun icrasını təşkil edirdi.

1919-cu ilin avqustunda milli ordunun artıq kifayət qədər formalaşmış olan hərbi hissələri Lənkəran bölgəsinin Azərbaycan hökumətinə tabe olamayan qiyamçı qüvvələrdən təmizlənməsi məqsədilə planlaşdırılan əməliyyatı uğurla yerinə yetirdi. Bu bölgəni nəzarət altına almış ağqvardiyaçı qüvvələrin tərk-silah edilməsi və orada Azərbaycan Xalq Cümhuriyyətinin hakimiyyətinin bəqərar edilməsi hərbi nazirin əmri ilə yaradılmış Lənkəran dəstəsinə tapşırıldı.

Bu dəstəyə 5-ci Bakı piyada alayı, 3-cü Şəki süvari alayı, 2-ci yüngül topçu, 6-cı dağ topçu və ələhiddə qaubitsa batareyaları, istehkam taqımı və zirehli maşınlar taqımı daxil edilmişdi. Dəstəyə rəhbərlik general-mayor Həbib bəy Səlimova tapşırıldı. 1919-cu il avqust ayının 14-də Hacıqabuldan hərəkətə başlayan dəstə həmin ayın 23-də uğurla Lənkərana yetişdi. Dəstə bölgəyə toplaşmış qiyamçı qüvvələri tərk-silah etdi və çoxlu silah toplanaraq Bakıya göndərildi.

1920-ci il bolşevik işğalı ərəfəsində Azərbaycan Xalq Cümhuriyyəti Ordusunun döyüş hissə və birləşmələri aşağıdakılardan ibarət idi: hər birinin tərkibində üç piyada alayı olan iki piyada diviziyası, əlavə iki ələhiddə piyada alayı (ümumən 8 piyada alayı), üç süvari alayından ibarət olan bir süvari diviziyası, iki topçu briqadası, üç zirehli qatar, ələhiddə topçu divizionu, ələhiddə batareya, avtokomanda, hərbi gəmilər, zirehli avtomobil taqımı, təyyarə dəstəsi, mühafizə bölüyü, Zəngəzur bölgəsində yerli əhalidən təşkil edilmiş piyada taboru və atlı divizionu. Bunlardan başqa, milli ordunun tərkibində hərbi məktəblər, müxtəlif anbarlar, tibb müəssisələri, hərbi zavodlar, hərbi nümayəndəliklər və digər xidmət bölmələri var idi.

Bu qüvvələrlə AXC ordusu 1920-ci ilin mart--aprel aylarında Qarabağın və Azərbaycanın digər ərazilərinin işğal edilməsi üçün Ermənistan silahlı quldur birləşmələrinin başladığı hərbi təcavüzün qarşısının alınması məqsədi ilə genişmiqyaslı hərbi əməliyyatda iştirak etdi. 1920-ci il mart ayının 22-dən 23-nə keçən gecə – Novruz bayramı günlərində erməni hərbi qüvvələri eyni vaxtda Şuşada, Xankəndidə, Əsgəranda, Xocalıda və Tərtərdə yerləşən milli ordu bölmələrimizin üzərinə hücuma keçdilər.

Ermənistan hərbi qüvvələri Qarabağın dağlıq hissəsində yaradılmış separatçı dəstələrlə birlikdə dörd istiqamətdən Azərbaycan ərazilərinin işğalına cəhd göstərdilər. Qazax-Ağstafa, Ağdərə-Tərtər, Şuşa-Əsgəran-Ağdam və Cəbrayıl ərazilərindən başlanan hücumlar kütləvi dağıntılarla müşayiət olunurdu. Ermənistan siyasi rəhbərliyinin və hərbi komandanlığının hazırladığı plana görə, əvvəlcə bütün Qarabağ işğal altına alınmalı, sonra isə erməni qüvvələrinin Tərtərdən və Qazax istiqamətindən irəliləməsi nəticəsində Gəncə şəhəri işğal edilməli idi.

Ermənistanın bu işğalçılıq planının qarşısının alınması üçün əsasən, Qarabağda və onun ətrafında aparılan müharibə müstəqillik dövründə Azərbaycan Ordusunun və onun rəhbərliyinin rastlaşdığı ən ciddi və taleyüklü bir imtahan idi. Bu sınaqdan uğurla çıxmaq üçün dərhal AXC ordusunun bütün potensialı səfərbərliyə alındı. Gəncədə əməliyyatın idarə edilməsi qərargahı yaradıldı və hərbi nazir Səməd bəy Mehmandarov bu qərargaha rəhbərliyi öz üzərinə götürdü.

Erməni hərbi qüvvələrinin təcavüzünün əsas zərbə qüvvəsinin istiqamətləndiyi Qarabağda Azərbaycanın müstəqilliyinin qorunması üçün milli ordunun hissə və bölmələrindən ibarət Qarabağ dəstəsi yaradıldı və ona rəhbərlik general-mayor Həbib bəy Səlimova tapşırıldı. General Əliağa Şıxlinskiyə isə Hərbi Nazirliklə Qarabağ dəstəsi və Gəncədəki əməliyyatın idarə edilməsi qərargahı arasındakı sıx əlaqələrin təmin edilməsi həvalə olundu.

Qısa müddət ərzində Azərbaycanın müxtəlif ərazilərində yerləşdirilmiş olan hissə və bölmələrin Qarabağ bölgəsinə çatdırılması, onların zəruri silah və sursatla təchiz edilməsi təmin edildi. Razılaşdırılmış plan əsasında bu hissə və bölmələr müdafiə döyüşlərinə cəlb edildilər. Nəticədə, erməni hərbi qüvvələrinin bütün təcavüz cəhdlərinin qarşısı alındı və təxminən, bir ay davam edən müdafiə döyüşlərində milli ordumuzun hissə və bölmələri erməni hərbi qüvvələrinə güclü zərbə endirdilər. Həm Qazax-Ağstafa istiqamətində, həm də Qarabağ daxilində erməni təcavüzünün qarşısı uğurla alındı.

Hərbi nazir Səməd bəy Mehmandarovun strateji rəhbərliyi, onun müavini Əliağa Şıxlinskinin yüksək təşkilatçılığı, Qarabağdakı hərbi qüvvələrə rəhbərlik edən Həbib bəy Səlimovun, Teymur bəy Novruzovun, Cavad bəy Şıxlinskinin, digər zabitlərin və döyüşçülərin şücaəti və fədakarlığı nəticəsində cümhuriyət ordusu ona tapşırılmış vəzifəni qələbə ilə başa çatdırdı. Ermənı silahlı qüvvələrinin bütün cəhdlərinə baxmayaraq Qarabağın Azərbaycandan qoparılması mümkün olmadı.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə ordu quruculuğu, müstəqil dövlətçiliyə xidmət, milli maraqların müdafiəsinə sədaqət sahəsində yeni bir təfəkkür formalaşdırıldı, milli hərbi ənənələrə yeni bir məzmun verildi. Məhz buna görə idi ki, AXC-nin süqutundan sonra bolşevik quruluşunun daşıyıcıları Azərbaycan üzərində qırmızı işğalı möhkəmləndirmək üçün, ilk növbədə, milli hərbi kadrların kütləvi terroruna başladılar. Doğrudur, istər Cümhuriyyət dövründə xidmət sıralarında olmuş, istər sovet hakimiyyəti illərində yeni rejimə xidmət yoluna cəlb olunmuş çox sayda milli hərbi kadrlar qırmızı bolşevik terrorunun qurbanı oldu. Hətta 1938-ci ilə qədər milli diviziya adı altında mövcud olan Azərbaycan diviziyası da bu terrordan yaxa qurtara bilmədi və həmin ildə onun ləğvinə qərar verildi.

Bununla belə, azərbaycanlılar arasında milli hərbi ruhu bütünlüklə məhv etmək sovet rejiminə qismət olmadı. İkinci dünya müharibəsi illərində faşizmə qarşı mübarizədə Azərbaycan xalqının göstərdiyi xidmətlər, Azərbaycan övladlarının misilsiz hünəri buna daha bir sübutdur. Lakin sovet rejimi izlədiyi ideologiyaya və siyasi hədəflərə uyğun olaraq xalqın AXC hakimiyyəti dövründən yeni məzmun kəsb edən hərbi ənənələrinin canlandırılmasına, azərbaycanlıların hərb işinə daha geniş şəkildə genişlənməsinə imkan vermədi.

Bu sahədə xalqın maraqlarına cavab verən dönüşə yalnız ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illərdə nail olmaq mümkün oldu. Azərbaycan müstəqil olmadığı zaman qəhrəmanlıq ənənələrimizin davam etdirilməsi, zəngin hərb tariximizin canlandırılması, gənclərin bu qəhrəmanlıq nümunələri üzərində tərbiyə edilməsi, sərkərdələrin və görkəmli hərb xadimlərinin şərəfli yolunun davam etdirilməsi fikirləri həmişə ulu öndər Heydər Əliyevin diqqət mərkəzində olmuşdur.

Bunun nəticəsi idi ki, sovet illərində Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi vaxtlar hərbi xidmətə münasibətdə yeni bir baxış formalaşdırıldı, bu istiqamətdə əməli-təşkilati işlərə vüsət verildi. Sovet rejiminin böyük müqavimətinə baxmayaraq, Cəmşid Naxçıvanski adına xüsusi-internat məktəbin açılması, Bakı şəhərində yerləşən hərbi məktəblərdə azərbaycanlı kursantların sayının artırılması, ölkənin ali hərbi məktəblərinə göndərilən azərbaycanlıların sıralarının genişləndirilməsi Heydər Əliyevin milli hərbi ənənələrin canlandırılması sahəsindəki tarixi fəaliyyətinin əyani nümayişidir.

Ulu öndər sonradan xatırlayırdı ki, "bunların hamısını edərkən biz öz xalqımız haqqında düşünürdük. Düşünürdük ki, xalqımızda hərbi peşə itməsin, xalqımız hərbi peşədən məhrum olmasın. Mən eyni zamanda o vaxt düşünürdüm ki, gələcəkdə bu, bizə lazım olacaqdır". Doğrudan da, məhz Heydər Əliyevin qayğısı ilə sovet hakimiyyəti illərində yetişmiş olan milli hərbi kadrlar Azərbaycan öz müstəqilliyini bərpa edəndən sonra onun milli ordusunun kadr heyətinin əsasını təşkil etdilər.

Azərbaycan Xalq Cümhuriyyəti ordusunun ən yaxşı ənənələrini yeni səviyyədə, yüksək keyfiyyətdə davam etdirən müasir ordumuzun əsasını da məhz ulu öndər Heydər Əliyev qoymuşdur. Bu istiqamətdə köklü dəyişikliklər isə onun radio və televiziya ilə Azərbaycan xalqına 2 noyabr 1993-cü il tarixli müraciətindən başlayır. Bu tarixi müraciətdən sonra ordu quruculuğu sahəsində başlanan uğurlu işlər atəşkəs dövründə daha yaradıcı şəkildə davam etdirildi və qısa müddətdən sonra Azərbaycan Ordusu çox qüdrətli bir qüvvəyə çevrildi.

Prezident Heydər Əliyev Azərbaycan Ordusunun təşkilatlanmasını, böyük qüvvəyə çevrilməsini çox böyük məmnunluqla qeyd etmişdi: "1993-cü ilin sonlarından başlayaraq həyata keçirilmiş xüsusi tədbirlər nəticəsində milli ordu quruculuğu keyfiyyətcə yeni mərhələyə qədəm qoydu, qısa müddətdə vahid komandanlığa tabe olan nizami ordu formalaşdırıldı. Hazırda Azərbaycanın Silahlı Qüvvələri müasir hərbi texnika ilə təchiz edilmiş, möhkəm nizam-intizam, yüksək döyüş ruhu ilə seçilən, düşmənə sarsıdıcı zərbə vurmağa qadir olan bir ordudur. Milli ordumuz müstəqil dövlətmizin ən böyük dayağı, xalqımızın təhlükəsizliyinin və ölkəmizin ərazi bütövlüyünün təminatçısıdır".

Ulu öndər Heydər Əliyev siyasətinin uğurla davam etdirilməsinin nəticəsidir ki, yaradılmasının 100-cü ildönümü ərəfəsində Azərbaycan Ordusu dünyanın ən güclü orduları sırasında yer tutmuşdur. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında ordu quruculuğunun dövlət quruculuğunun prioritet istiqamətinə çevrilməsi bu prosesin ahəngdarlığına və səmərəliliyinə əsaslı bir zəmin yaratmışdır. Nəticədə, ordunun maddi-texniki bazasının təkmilləşdirilməsində, onun dünyanın ən müasir silah və hərb texnika ilə təchiz edilməsində, ordunun infrastrukturunun yenilənməsində, hərbi qulluqçuların sosial müdafiəsinin gücləndirilməsində keyfiyyətcə yeni bir mənzərə meydana çıxmışdır.

Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənov 2018-ci il iyun ayının 22-də kütləvi informasiya vasitələrinə verdiyi müsahibəsində Azərbaycan Ordusunun sürətli inkişafını və son uğurlarını məhz ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin ordu quruculuğu sahəsində müəyyənləşdirdiyi vəzifələrin və tapşırıqların icrası ilə bağlı olduğunu belə vurğuladı: "Yubiley ərəfəsində bir daha qeyd etmək istərdim ki, ordumuzun silahlanmasına yüksək texnologiyaların tətbiqi ilə hazırlanmış ən müasir, geniş ərazidə dəqiq məhvetmə qabiliyyətinə malik silah-sursat və döyüş texnikası qəbul edilib. Bu da ordumuzun qüdrətinin artmasına əvəzsiz töhfələr verib. Ali Baş Komandanın tapşırığına əsasən bu proses mərhələlərlə, davamlı surətdə həyata keçirilir.

Son illərdə hərbi potensialımız xeyli artaraq Ermənistan ilə Azərbaycan arasında hərbi balansı bizim xeyrimizə əhəmiyyətli dərəcədə dəyişib.

Məhz 2016-cı ilin aprel ayında Ağdərə, Füzuli, Cəbrayıl istiqamətlərində və cari ilin may ayında Naxçıvanda həyata keçirilən əks-həmlə əməliyyatlarında qazanılan uğurlar Ali Baş Komandanın diqqət və qayğısı ilə orduda həyata keçirilən kompleks islahatlar nəticəsində mümkün olub. Qeyd etdiyim hər iki tarixi məqam Azərbaycan Ordusunun döyüş hazırlığı, ruh yüksəkliyi, mənəvi-psixoloji durumu və peşəkarlıq baxımından Ermənistan ordusundan qat-qat üstün olduğunu əyani şəkildə sübut etdi".

Bu gün inkişafının ən yüksək səviyyəsində olan Azərbaycan Ordusu həm də AXC ordusunun ən yaxşı ənənələrinə yeni bir məzmun verməklə müstəqilliyimizin qarantına çevrilmişdir. İşğal altında olan ərazilərin ən yaxın zamanlarda azad edilməsi isə şübhəsiz, bu ordunun tarixinə yazılacaq ən şərəfli səhifələrdən biri olacaq.

Mehman SÜLEYMANOV,
tarix elmləri doktoru,
ehtiyatda olan polkovnik